# Soyqırımı qurbanlarının xatirəsi AHİK-də ehtiramla anılıb



***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçirilən onlayn mərasimdə XX əsrdə erməni quldur dəstələrinin azərbaycanlılara qarşı törədiyi soyqırımları qurbanlarının, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş Vətən övladlarının əziz xatirəsi dərin ehtiramla yad edilib.***

AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək erməni millətçilərinin ötən əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə apardıqları soyqırımı və deportasiya siyasətinin faciəli aksiyalarından danışıb. O vurğulayıb ki, 1918-ci ilin mart–aprel aylarında daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törətdiyi soyqırımları isə öz amansızlığına və miqyasına görə təkcə Azərbaycanın deyil, ümumilikdə bəşəriyyətin tarixində ən qanlı faciələrdən biridir.

Mərasimdə bildirilib ki, o dövrdə Bakı quberniyasında başlanan kütləvi qətllər və talanlar daha sonra Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Göyçədə və digər bölgələrdə davam etdirilmişdir. Təkcə 1918-ci ilin mart–iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni silahlıları 50 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxı qəzasının 110, Quba qəzasının 167, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi yandırılmış və talan edilmiş, dinc əhaliyə heç bir fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur.

Daha sonra qeyd edilib ki, 2020-ci ilin payızında tarixi qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsinin gedişində də misilsiz erməni vəhşiliyinin şahid olduq. Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilməyən düşmən təxribatlara əl ataraq dinc mülki şəxsləri hədəfə almaqla silsilə müharibə cinayətləri törətdi. Gəncə, Bərdə, Mingəçevir və digər şəhərləri ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutuldu. Nəticədə, 100-ə yaxın mülki şəxs, onların arasında uşaqlar, qadınlar həlak olmuşlar. 400-dən çox mülki şəxs yaralanmış, 5 mindən çox ev dağıdılmış və ziyan çəkmişdir.

Sonda AHİK sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bölgəyə gətirdiyi yeni reallıqlar sülh və təhlükəsizliyə əsaslanır və regionun inkişafına təkan verəcək. Yaxın gələcəkdə Şərqi Zəngəzurun və Qarabağın əsl sakinləri öz torpaqlarına qayıdacaq və orada əbədi xoşbəxt yaşıyacaqlar. İşğaldan azad olunmuş ərazilərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır. Dövlətimizin başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtcaşırı yeni tikilən obyektlərin açılışlarını edirlər. Görülən işlər bir daha onu göstərir ki, Şərqi Zəngəzur və Qarabağ Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri olacaq.

***R.TAHİR, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 1 aprel.- S.5.